# FİLMOQRAFİYA

Eldar İsgəndərzadənin ssenarisi əsasında rejissor Vasif Məmmədzadənin quruluş verdiyi "Aida İmanquliyeva" sənədli-bədii televiziya filmi 2018-ci ildə İctimai Televiziyada istehsal edilmişdir. Sənədli televiziya filmi Azərbaycan Şərqşünaslıq elminin görkəmli nümayəndəsi, Ərəb məhcər ədəbiyyatının ilk araşdırıcılarından biri, Azərbaycanın ilk qadın Şərqşünas alimi, filologiya elmləri doktoru, dəyərli zayalı kimi xatirələrdə ehtiramla anılan Aida İmanquliyeva haqqındadır. Filmdə görkəmli alimi tanıyanlarının, tələbələrinin, davamçılarının, tanımış elm adamlarının, ziyalıların onun mənalı və zəngin elmi yaradıcılığı barədə maraqlı söhbətləri təqdim olunur.